**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

---

*Əlyazması hüququnda*

**PƏRVANƏ ƏLİ QIZI ƏLİYEVA**

# MÜRSƏL NƏCƏFOVUN ELMİ İRSİNDƏ İNCƏSƏNƏTİN NƏZƏRİ PROBLEMLƏRİ

6203.01 – İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2016**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun "Estetika və informasiya mədəniyyəti" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Rəna Həbib qızı Abdullayeva**
sənətşünaslıq üzrə elmlər doktoru

**Rəsmi opponentlər:** **Çingiz Əbdülməcid oğlu Fərzəliyev**
Əməkdar İncəsənət Xadimi, professor

**Günay Nizami qızı Qafarova**
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** **Azəbaycan Dövlət Rəssamlıq Akademiyası**

Dissertasiyanın müdafiəsi _07__ __06_____2016-cı il saat _____-da Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin FD 02.091 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1100, Bakı şəhəri, Həsən bəy Zərdabi küç 39A.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat ___ ________ 2016-cı ildə göndərilmişdir.

FD 02.091 Dissertasiya Şurasının elmi katibi,
kulturologiya üzrə fəlsəfə doktoru,
dosent **F.R.Məmmədova**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

***Mövzunun aktuallığı.*** Respublikamızda müasir sənətşünaslıq elminin yaranması, təsviri sənətimizin inkişaf mərhələlərinin tədqiqi və təbliğində müstəsna rolu olan alimlərdən biri, Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı, İkinci Dünya müharibəsi veteranı, sənətşünaslıq doktoru, professor Mürsəl Nəcəfovdur.

Yaradıcılıq axtarışları nəticəsində ömürlük sənətşünaslıqla bağlanmış Mürsəl Nəcəfov, incəsənətimizin fədakar tədqiqatçısı, təbliğatçısı olmuşdur. 200-dən artıq kitabın və elmi əsərin, məqalənin müəllifi olan Mürsəl Nəcəfov Azərbaycan sənətşünaslığının banilərindən biri sayılır. Alimin təsviri sənətimizə həsr etdiyi elmi əsərləri, rəssamlıq, heykəltəraşlıq, tətbiqi sənət işləri haqqında populyar məqalələri ölkəmizin hüdudlarından çıxaraq milli mədəniyyətimizi dünyaya tanıtmışdır. Mürsəl Nəcəfov 30 il ərzində televiziyada Azərbaycan və dünya xalqlarının incəsənəti və muzeyləri haqqında maraqlı verilişlərin müəllifi idi. Dünya muzeylərinin gözəl bilicisi olan sənətşünasın Azərbaycanda muzey işinin təşkilində də xidmətləri təqdirəlayiqdir. O, uzun illər Azərbaycan Dövlət Mükafatları Komitəsinin elmi katibi olmuşdur.

Azərbaycan incəsənətini yorulmadan tədqiq və təbliğ edən alimlərimizdən olan Mürsəl Nəcəfovun elmi irsi indiyə kimi kifayət qədər hərtərəfli təhlil olunmamış, alimin nəzəri sənətşünaslığına gətirdiyi töhfələr öz layiqli qiymətini almamışdır. Bu baxımdan alimin elmi irsinin öyrənilməsinə ehtiyac duyulur və bu problemin qoyuluşu aktual əhəmiyyət kəsb edir.

Azərbaycan sənətşünaslıq elminə onun yaradıcılıq təhlilinin, elmi axtarışların daxil edilməsi elmin tarixi və metodologiyasının öyrənilməsinə dəyərli material verir. Alimin elmi tədqiqatlarında tam, bütöv halda onun yaşadığı dövrün estetik, bədii və tarixi baxışları qovuşur. Tədqiqatçının elmi irsinin ümumiləşmiş şəkildə ətraflı və nəzəri təhlili Azərbaycan sənətşünaslığının vacib və əhəmiyyətli problemlərini daha çox aşkarlamağa imkan verir.

Alimin Azərbaycan satirik qrafika sənətinin tədqiqi və təbliğatı sahəsində xidmətlərini xüsusi qeyd etmək gərəkdir. Onun tərəfindən aşkarlanmış zəngin elmi material və məlumatlar uzun müddət geniş tədqiqatçı dairəsi və Azərbaycan təsviri sənətini sevənlər üçün əlçatmaz olmuşdu. M.Nəcəfovun gərgin əməyi nəticəsində dünya muzeylərində saxlanılan nadir sənət inciləri, ümumən xarici incəsənət haqqında geniş məlumat əldə edilmiş, tədqiq və təbliğ olunmuşdur. Görkəmli sənətşünas-alimin bu sahədə apardığı işlər sonralar "Əsrlərdən xatirə" (1968), "Gözəllik aləminə səyahət" (1973, 1985) və b. əsərlərində öz əksini tapmışdır.

M.Nəcəfovun Azərbaycan sənətşünaslıq elminin inkişafına gətirdiyi yeniliklər, Azərbaycan satirik qrafikası, ümumiyyətlə təsviri sənət sahəsində etdiyi kəşflər alimin elmi-yaradıcılıq yolunun izlənməsinin zəruriliyini sübut edir. Bu baxımdan professor M.Nəcəfovun bədii irsinin bütövlükdə hərtərəfli, küll halında tədqiq edilməsinin və bu problemin elmi-nəzəri kontekstdə araşdırılıb fundamental iş şəklində təqdim olunması aktual məsələ kimi ortalığa qoyulur.

***Tədqiqatın işlənmə dərəcəsi.*** Müstəqilliyimizi bərpa etdikdən sonra ölkəmizin elminə, onun yaradıcı potensialı, hərəkətverici qüvvəsi olan alimlərimizə diqqət artmaqdadır. Azərbaycan incəsənətini dünyada tanıtdıran aparıcı sənətşünas alimlərimizin qoyub getdiyi elmi irsə, məktəbə olan maraq onların keçdiyi həyat yolu, seçdikləri istiqamət, istifadə etdiyi metodologiya ilə əlaqədardır. Aparıcı sənətşünasların əldə etdikləri nəticələr, zəngin elmi material gələcək sənətşünaslarımız tərəfindən işlədilə biləcək əsas mənbədir.

Digər tərəfdən, empirik və nəzəri materialların toplanması prosesində, bir çox sənət məsələlərinin araşdırılmasında, yeni-yeni kəşflərin edilməsində, bir çox problemlərin çözülməsində bu və ya digər alimin rolu haqqında fundamental tədqiqatlar azlıq təşkil edir. Bu mənada G.Rəhimovanın 2007-ci ildə müdafiə etdiyi "Kərim Kərimov və Azərbaycan sənətşünaslığı" namizədlik dissertasiyası xüsusi əhəmiyyət kəsb edir. Dissertasiyada görkəmli alimimizin elmi fəaliyyətini dərindən təhlil edən müəllif tədqiqatçının elmi irsini və onun Azərbaycan

sənətşünaslığı tarixindəki rolunu müəyyən etməyə cəhd edir, onun Azərbaycan və dünya elminə gətirdiyi yeni fikirləri açıqlayır.

Digər bir tədqiqat işi Ə.Abdullayeva tərəfindən 2010-cu ildə müdafiə olunan "Akademik Rasim Əfəndiyevin Azərbaycan sənətşünaslığının inkişafında rolu və mövqeyi" mövzusunda dissertasiyasıdır. Tədqiqatda akademik Rasim Əfəndinin elmi kəşfləri sistematik, dərindən və hərtərəfli öyrənilmiş, alimin Azərbaycan incəsənətinin xarici ölkələrdə təbliğindəki müstəsna rolu vurğulanmışdır.

Azərbaycan sənətşünaslığının elmi-nəzəri bazasının yaranmasının, onun təşəkkülünün və inkişaf mərhələlərinin öyrənilməsi, hər zaman vacib məsələlərdən biri kimi aktualdır. Bu elmin təməlində duran Mürsəl Nəcəfov yaradıcılığının, onun elmi fəaliyyətinin tədqiqi bir daha sübut edir ki, belə alimlərimizin vaxtilə bizə verdiyi örnəkləri rəhbər tutaraq onların qoyduqları istiqamətlə irəliləmək, elmi irsindən bəhrələnmək lazımdır.

Professor Mürsəl Nəcəfovun elmi-tədqiqat irsini təhlil edən bir sıra tədqiqat işləri arasında həm Azərbaycan, həm də xarici tədqiqatçılar tərəfindən aparılmış araşdırmalar həcmindən və yanaşma tərzindən asılı olmayaraq alimin keçdiyi elmi yaradıcılıq yolu haqqında müəyyən təsəvvür yaradır. Xalq rəssamları M.Abdullayevin, T.Salahovun, R.Mehdiyevin, Ə.Rzaquliyevin tədqiqatlarında və rəylərində, həmçinin yazıçı-alim K.Abdullayevin, publisist İ.Xəlilovun, M.Səmədin, sənətşünaslar X.Zeynalovun, R.Cəfərovanın və başqalarının yazılarında müəlliflər M.Nəcəfovu bir alim kimi formalaşmasının və inkişafının konkret mərhələlərini işıqlandırır, onun Azərbaycan incəsənətinin tədqiqində və təhlilində, eyni zamanda xarici incəsənətin ölkəmizdə təbliğində rolunu yeni aspektdə nəzərdən keçirdiyini qeyd edirlər.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın əsas məqsədini Mürsəl Nəcəfovun elmi irsinin ümumiləşmiş şəkildə ətraflı tədqiq və təhlil etmək, alimin yaradıcılığını XX əsr Azərbaycan sənətşünaslığının inkişafı prizmasından araşdırmaq təşkil edir. Bu məqsəddən irəli gələn vəzifələr aşağıdakılardır:

- M.Nəcəfovun elmi maraqlarını bütövlükdə əks etdirmək üçün alimin bütün elmi-metodoloji işlərini toplamaq və sistemləşdirmək;

- M.Nəcəfovun elmi irsini tam şəkildə araşdırmaq və milli sənətimizin inkişafındakı rolunu müəyyən etmək, alimin elmdəki və incəsənətin inkişafı prosesindəki xidmətlərini hərtərəfli və obyektiv öyrənmək;
- M.Nəcəfovun Azərbaycan satirik qrafikasının tarixinin öyrənilməsində rolunu müəyyən etmək, xüsusən, "Azərbaycan karikaturası" anlayışının formalaşdırılması sahəsindəki rolunu əsaslandırmaq;
- Elmi yaradıcılığında Ə.Əzimzadənin bədii irsinə həsr olunmuş yazıların yerini müəyyən etmək;
- Dünya muzeylərinin tədqiqində və təbliğində rolunu aşkarlamaq;
- Azərbaycan və dünya xalqları incəsənəti haqqında mətbuat, televiziya və radio verilişlərində təbliğinin rolunu vurğulamaq, alimin elmi irsində bədii tənqidin yerini müəyyən etmək.

***Tədqiqatın obyekti və predmeti.*** Tədqiqatın predmetini Azərbaycan sənətşünaslığının bərqərar olmasında mühüm rol oynamış professor Mürsəl Nəcəfovun elmi irsi təşkil edir.

Tədqiqat obyekti kimi alimin zəngin elmi irsini təşkil edən mühim elmi-tədqiqat əsərləri, ölkə daxilində və xaricdə çap olunan monoqrafiyaları, elmi məqalələri, televiziya üçün hazırladığı ssenariləri, məruzələri çıxış edir. Bundan əlavə, tədqiqat obyekti kimi professorun Azərbaycanda fəaliyyət göstərən tanınmış rəssamlara, sənət fədailərinə həsr olunmuş bukletlərə yazılmış ön sözləri götürülmüşdür. Həmçinin alimin həyatı, yaradıcılığı və əsərləri haqqında müxtəlif tədqiqatçıların araşdırmaları da tədqiqatın obyektini təşkil edir.

***Tədqiqatın metodoloji əsasları.*** Tədqiqat işinin metodoloji əsasını Mürsəl Nəcəfovun çoxşaxəli elmi yaradıcılığının ayrı-ayrı dövrlərini xarakterizə edərək elmi əsərlərinin ardıcıl təhlili təşkil edir. Tədqiqat əsasən tarixilik prinsipinə söykənib, bu da alimin tədqiqatlarına tarixi hadisələrin təsirindən irəli gəlir ki, nəticədə alimin bütün yaradıcılıq yolunu izləməyə imkan yaranır.

Problemin tədqiqində xronoloji ardıcıllığa riayət edilmiş, başlıca olaraq tarixi-müqayisəli və analitik metodlar kompleks şəkildə istifadə olunmuşdur. Eyni zamanda, dissertasiyanın nəzəri-metodoloji bünövrəsi müqayisəli təhlillə sosial-

kulturoloji təhlil üzərində durur. Bu elmi işdə sənətşünaslığın təsviri metodundan, lazım gəldikdə isə tipoloji araşdırma metodlarına, sənətşünaslığın nəzəri müddəaları və nəticələrinə müraciət olunub. Eyni zamanda arxiv sənədləri axtarılaraq təhlil olunmuş, materiallar ümumiləşdirilərək şərh olunmuş, müasir sənətşünaslıqla bağlı elmi-nəzəri ədəbiyyat öyrənilmişdir.

Alimin elmi irsinin tədqiqi zamanı milli və ümumbəşəri dəyərlərdən, sənətşünaslığın elmi-nəzəri qənaətlərindən bəhrələnilib. Tədqiqata arxiv sənədləri, qəzet və jurnal materialları, alimin özünün yazdığı əsərləri, ssenariləri, şəxsi arxiv materialları, eləcə də Azərbaycan tarixçilərinin və ədəbiyyatşünaslarının, sənətkar və sənətşünaslarının əsərləri də cəlb olunmuşdur.

Ümumilikdə, dissertasiyada Mürsəl Nəcəfovun elmi-tədqiqat, ictimai-təşkilatçı və pedaqoji fəaliyyətinə aid olan bütün mümkün materiallar toplanaraq təhlil edilmiş, bu araşdırmalar XX əsr sənətşünaslığı kontekstində nəzərdən keçirilmişdir.

***Tədqiqatın hüdudları.*** Dissertasiya professor Mürsəl Nəcəfovun elmi yaradıcılığının bütün əsas istiqamətlərini əhatə edir. Təhlil sənətşünas-alimin erkən yaradıcılığından, yəni XX əsrin əvvəllərindən başlamış ömrünün son günlərinə kimi – 90-cı illərin axırına kimi olan dövrü əhatə edir. Lakin XX əsrin ortalarına daha çox diqqət ayrılır, çünki həm Azərbaycan sənətşünaslığının çiçəklənmə dövrü, həm də alimin məhsuldar dövrü məhz bu illərə təsadüf edir.

Alimin elmi fəaliyyətinin təhlili onun elmi araşdırmaların tarixi və coğrafi əhatə dairəsi ilə bağlı olaraq yeni dövr Azərbaycan incəsənətinə tarixi baxış fonunda baş verir. Eyni zamanda alimin dünya incəsənətinin tədqiqi ilə əlaqədar müxtəlif tarixi dövrlərin nəzərdən keçirilməsi zəruri hesab olunur.

***Dissertasiyanın elmi yeniliyi.*** Tədqiqat işinin elmi yeniliyi məhz problemin qoyuluşu ilə müəyyən olunur və əsasən, aşağıdakı müddəalarda öz əksini tapır:

1. İlk dəfə olaraq Azərbaycan sənətşünaslığında professor Mürsəl Nəcəfovun elmi araşdırmaları sistematik, dərindən və hərtərəfli öyrənilmişdir;

2. Toplanmış zəngin və müxtəlif profilli elmi material dünyanın və müasir Azərbaycanın incəsənət tarixinin öyrənilməsi üçün bu gün müstəsna dərəcədə maraq doğurur. Belə elmi araşdırmalar sonrakı tədqiqatçılar üçün mühüm analitik materialdır, çünki burada alimin bütün yaradıcılıq yolunun sistematik təhlil edilməsinə cəhd olunub;
3. Mürsəl Nəcəfovun elmi yaradıcılığında Ə.Əzimzadənin bədii təhlilinin yeri müəyyən edilib, alimin dünya muzeylərinin tədqiqində və təbliğində rolu aşkarlanıb;
4. Professor M.Nəcəfovun Azərbaycan və dünya xalqları incəsənəti haqqında mətbuatda, televiziya və radio verilişlərində təbliğinin rolu vurğulanıb;
5. İlk dəfə olaraq professor M.Nəcəfovun elmi irsində bədii tənqidin yeri müəyyən edilib;
6. Dissertasiyaya müxtəlif təsviri və dekorativ-tətbiqi sənətlərə dair elmi araşdırmalar daxil edilib;
7. Professor Mürsəl Nəcəfovun elmi irsinə dair müxtəlif müəssisələrdə saxlanılan materiallar ümumiləşdirilmiş və təhlil edilmişdir. Əldə olan informasiyanın bir yerə toplanması alimin yaradıcılığındakı bu və yaxud digər dövrünü müqayisəli təhlil etməyə imkan yaradır, sonrakı tədqiqatçılara bu müəllif haqqında müəyyən informasiyanın axtarışını asanlaşdırır;
8. Nəşr olunmuş əsərlərinin mədəni siyasətimiz üçün əhəmiyyəti müəyyən olunur.

***Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.*** Hazırkı tədqiqat respublikamıza, Rusiyaya və xarici ölkələrə mənsub müxtəlif kolleksiyaları populyarizə edir, Azərbaycan tarixi və mədəniyyəti üzrə praktik material rolunu oynayır. Bu tədqiqatın nəticələri müasir sənətşünaslığın mühim və aktual problemlərin tədqiqində, həmçinin, ali və orta ixtisas təhsil ocaqlarının tədris prosesində istifadə oluna bilər. Dissertasiyada təqdim edilən material incəsənət təmayüllü ali məktəblərdə "İncəsənətin tarixi və nəzəriyyəsi", "Azərbaycan incəsənəti tarixi",

“Təsviri sənətin tarixi və metodologiyası”, “Sənətşünaslığın metodoloji əsasları” və bu kimi fənlərin tədrisində istifadə oluna bilər.

Tədqiqatın materialları sənətşunas-alim və tarixçilər, həmçinin, qədim ənənələrimizin mütərəqqi tərəflərindən istifadə edən sənətkarlar, rəssamlar, dekorativ-tətbiqi sənət ustaları, xalq sənətkarları bəhrələnə bilərlər.

***Tədqiqatın aprobasiyası.*** Tədqiqat Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun “Estetika və informasiya mədəniyyəti” şöbəsində müzakirə edilmişdir. Dissertasiyanın əsas məzmunu, elmi müddəaları və nəticələri 1 monoqrafiya, 14 elmi məqalədə öz əksini tapmışdır, mövzu üzərindəki axtarışları əks etdirən məruzələr  müxtəlif beynəlxalq elmi-nəzəri konfranslarda dinlənilmişdir. Monoqrafiya 2014-cü ildə AMEA-nın gənc alimləri üçün “28 May Respublika Günü” ilə əlaqədar keçirilən qrant müsabiqəsində ikinci yerə layiq görülmüşdür.

***Tədqiqatın həcmi və strukturu.*** Dissertasiya giriş, iki fəsil, altı yarımfəsil, nəticə, ədəbiyyat siyahısından ibarətdir. Tədqiqatın məzmunu kompüter yığımının 126 səhifəsində öz əksini tapmışdır.

## İŞİN ƏSAS MƏZMUNU

***Girişdə*** mövzunun aktuallığı əsaslandırılır, problemin işlənmə dərəcəsi, işin nəzəri-metodoloji əsasları, obyekti və predmeti, məqsəd və vəzifələri, coğrafi və xronoloji sərhədləri müəyyən olunur, elmi yeniliyi və nəzəri-təcrübi əhəmiyyəti açıqlanır.

***Birinci fəsil* – “Mürsəl Nəcəfovun elmi irsinin əsasını təşkil edən Azərbaycan təsviri sənətinin tədqiqi”** adlanır və alimin professional sənətşünas kimi formalaşmasına həsr olunub. I Fəslin “Həyatı və  yaradıcılıq fəaliyyətinin erkən dövrü” adlanan *birinci yarımfəslində* M.Nəcəfovun həyatı və yaradıcılığına  bir nəzər salınır.

Sənətə böyük rəğbət hissi onun qəlbində hələ uşaq yaşlarından baş qaldırmışdı. Rəssamlığa 30-cu illərdə gələn Mürsəl Nəcəfovun ilk əsl böyük

müvəffəqiyyətini müharibədən əvvəlki qırxıncı ildə, Nizami Gəncəvinin portret təsvirinin və heykəltəraşlıq abidəsinin yaradılması üçün elan olunmuş Ümumittifaq müsabiqəsində iştirak edərək qazanmışdır.

M.Nəcəfovun rəssamlıq yaradıcılığının əsas qolu Böyük Vətən müharibəsi illərinə təsadüf edir. Bu illərdə Mürsəl Nəcəfov insanların bədii obrazlarını, onların hünər və rəşadətini əks etdirərək, qəhrəmanlıq nümunəsindən çıxış edən şəxslərin portretini yaradırdı.

Onun əsərlərində vətənpərvərlik hissləri doğuran çox güclü elementlər var. Adi kənd mənzərələri, adət-ənənələr olduqca milli formada təsvir olunmuşdur. Mürsəl Nəcəfov hansı janrda işləyirsə işləsin, onun əsərlərində həmişə nikbin bir əhval-ruhiyyə hakim mövqe tuturdu. O, rənglərin dili ilə həyatın fraqmentlərini yaradır, onlara qəlbinin hərarətini köçürürdü.

Sənətlə bağlı ömrünü bir çox qiymətli əsərlərlə zənginləşdirmiş Mürsəl Nəcəfovun istər ifadədə, istərsə də biçimlərdə rəssamlığın əsas qanunları içində güclü və mənimsənilmiş bir realizmə hakimdir. Duyğusal biçimlər və ifadələr realist bir tərzdə anladılan "insan" əsərlərinin əsas mövzusudur.

Rəssamın çəkdiyi mücərrəd janrdakı əsərlər də diqqəti cəlb edir. Bu əsərlərdə sözlə ifadə olunmayan güclü bir şairanəlik var. Quaşla və sulu boya ilə çəkilmiş əsərlərində; portret və mənzərələrində gözlə beynin yorulmadan seyr edəcəyi gözəl bir tərzin axıcılığı görünür. Bununla bərabər, sənətçinin dünya hadisələrinə şəxsi münasibəti, onların fəlsəfi baxımından dəyərləndirilməsi bəzi əsərlərində fərdi koloritin üzə çıxmasına səbəb olmuşdur. Rəssamın əsərlərinin təhlili zamanı belə bir qənaətə gəlmək olar ki, o, fərdi üslub problemlərinə, dekorativliyə, zəngin ifadəliliyə daha çox meyl göstərir.

Rəssam dünyanın hər bir yerində yaradıcılığında seçdiyi mövzudan asılı olmayaraq hər zaman sırf milli rəssam xüsusiyyətlərini qoruyub saxlayır. Bu onun demokratik həyat baxışında, parlaq palitrasının enerjili döyüntüsündə və son dərəcə prinsipiallığında təzahürünü tapır. Sənətçinin daxilindən gələn səslərin, hisslərin gerçək bir adı, gerçək bir kimliyi yoxdur. Sənətçi varlıqlar üzərində çalışarkən, söhbət açarkən, istifadə etdiyi dilin simvolik dillə tariximizdən alınmış

bir sıra anları keçmişdəki dünyadan fərqli dünyaya, sənətkarın qurduğu dünyaya, məkana yerləşdirdiyini etiraf edir. Çalışmalarında söyləmək istədiklərini simvollar vasitəsilə ifadə edir.

Mənzərə, portret, məişət janrında durmadan əsərlər işləyən rəssam, eyni zamanda mənzərənin dəqiq və real təsvirini verməklə təbiətə olan vurğunluğunu bildirir, təbiətin ümumiləşdirilmiş obrazını panoram kompozisiyalı tablolarında əks etdirir. İlhamını naturaya tabe etməməyə çalışan rəssam çox zaman təbiəti gördüyü kimi deyil, qavradığı kimi təsvir etməyə çalışır. Bəzi tablolarında Mürsəl Nəcəfov mövzunun konkret poetik çərçivəsindən kənara çıxaraq, öz hiss və duyğularını əlavə etməklə onu daha da zənginləşdirməyə meyl edir.

Rəssamlıqla yanaşı, sənətşünaslıq xarakterli araşdırmalarla da fəal surətdə məşğul olan M.Nəcəfov, müxtəlif azərbaycanlı rəssamların yaradıcılığını tədqiq edirdi. Təsviri sənətimizin tənqidi və təbliği ilə 1938-ci ildən məşğul olan Mürsəl Nəcəfovun bu sahədə ilk yazısı “Bəhruz Kəngərli” əsəri olmuşdur (38). İlk professional Azərbaycan rəssamı olan Bəhruz Kəngərlinin həyat və yaradıcılığına dair həmin məqalədə Mürsəl Nəcəfov görkəmli sənətkarın keşməkeşli həyatından, fərdi yaradıcılıq üslubundan söhbət açır.

1939-cu ildə onu İncəsənət muzeyinə Azərbaycan incəsənəti şöbəsinə müdir təyin edirlər. Müharibədən sonra o, vətənə qayıdaraq yaradıcılıqla məşğul olub. Az sonra isə 1940-cı ildə o, Azərbaycan Rəssamlarının I qurultayında İttifaqın Rəyasət heyətinin məsul katibi, 1946-1948-ci illərdə Azərbaycan Rəssamlar İttifaqının sədri vəzifəsində çalışmışdır. M.Nəcəfov 1952-ci ildə İ.Repin adına Leninqrad Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq institutunu bitirmişdir. Elə buradan – təsviri sənətlə əlaqədar olan təşkilat və müəssisələrdə işlədiyi vaxtlardan fırçanı qələmlə əvəz etməli olur. Respublika mətbuatında tez-tez təsviri sənətin aktual problemlərinə dair yazılarla çıxış edir, tənqidi mülahizələrində bədiilik və ideyalılıq kriteriyalarına əsaslanır, sənətkarlıq məsələlərinə ciddi diqqət yetirir.

I Fəslin *II yarımfəsli* **“Elmi yaradıcılığında Ə.Əzimzadənin bədii irsinin tədqiqi”**nə həsr olunub.

Mürsəl Nəcəfovun sənətşünaslıq sahəsində ilk böyük işi 1954-cü ildə Moskvada çap etdirdiyi "Əzim Əzimzadə" monoqrafiyasıdır. Bu monoqrafiya görkəmli Azərbaycan rəssamı barədə ilk sanballı əsərdir. Sənətşünas böyük rəssamı şəxsən tanıdığı və yaradıcılığına yaxından bələd olduğu üçün monoqrafiya həm elmi, həm də bədii baxımdan maraqlı çıxmışdır. Mürsəl Nəcəfov əsərdə Əzim Əzimzadənin təkcə karikatura rəssamı kimi məhdudlaşdırmır, onun geniş diapazonlu bir rəssam olduğunu sübuta yetirir, milli teatr-dekorasiya sənətimizin inkişafında böyük xidmətlərini göstərir. Rəssamın Azərbaycan teatrları üçün çəkdiyi geyim eskizlərini – səhnə surətlərinin təsvirlərini araşdırdıqdan sonra M.Nəcəfov Əzim Əzimzadənin Azərbaycanda teatr-dekorasiya sənətinin banisi olduğu kimi, teatr rəssamlığı sahəsində də Əzim Əzimzadənin ənənələrini gözəl bir məktəb kimi qiymətləndirir.

M.Nəcəfovun "Hophopnamə" illüstrasiyaları haqqındakı fikirləri xüsusi diqqətə layiqdir. Ə.Əzimzadənin "Hophonamə" külliyyatı ilə bağlı yaradıcılığını ardıcıl surətdə araşdıran sənətşünas, "Hophonamə"nin illüstrasiyalarını Ə.Əzimzadənin orijinalları ilə müqayisə edərək, litoqrafiya üsulu ilə çap edilmiş şəkilləri rəssamın əlilə çəkilmiş şəkillərdən xeyli fərqli olduğunu aşkarlayır (67, 19). Özünəməxsus araşdırma tərzi olan tədqiqatçı alim şəkillərin həm rənglərində, həm də kənar cizgilərində üzə çıxarır. "Hophopnamə"də gedən illüstrasiyaların rəngləri həmin şəkillərin əslinə görə olduqca şərti verilməsini müşahidə edir.

Ə.Əzimzadənin ayrı-ayrı karikaturaların seçimi və təhlili zamanı M.Nəcəfov əsərlərin həm mövzu, həm də bədii mahiyyətini nəzərə alır, peşəkar sənətşünas kimi rəssamın fərdi manerası, dəst-xətti, üslub xüsusiyyətləri haqqında məlumat verir. Diplom işi üzərində apardığı araşdırmaların nəticəsində o, Ə.Əzimzadənin bütün əsərlərindən ibarət olan kataloq tərtib edir. Bu kataloqa rəssamın 2800 işi daxil edilmişdir.

M.Nəcəfovun 1969-cu ildə müdafiə etdiyi "Azərbaycan incəsənətinin inkişafında Əzim Əzimzadənin rolu" adlı doktorluq dissertasiyası görkəmli rəssamımız Ə.Əzimzadənin yaradıcılığının öyrənilməsinə həsr edilmiş ən mükəmməl və əhatəli monoqrafiyalardan biri hesab olunur, çünki bu qiymətli

elmi əsərdə Azərbaycan xalqının incəsənət tarixində ən maraqlı, özünəməxsus və parlaq hadisələrdən birinin öyrənilməsi nəticəsində aşkar olunan maraqlı məlumatlar, mülahizələr, elmi qənaətlər cəmləşib. Tədqiqata indiyə kimi elmi ictimaiyyətə az məlum olan, çox zaman isə ümumiyyətlə məlum olmayan əhatəli material cəlb edən M.Nəcəfov, Azərbaycan sənətşünaslıq ədəbiyyatında bu sahədə yaranmış boşluğu əhəmiyyətli dərəcədə doldurmuşdur. Alimin tədqiqat işinin elmi və tarixi-mədəni əhəmiyyəti məhz bununla müəyyən olunur.

Ə.Əzimzadə yaradıcılığının idrakı gücünün təkcə iti tematikası və aktuallığı ilə seçilmədiyini bildirən M.Nəcəfov, bunu eləcə də bədii vasitələrin ifadəliliyində görür və üslub etibarı ilə əsl realist olan Ə.Əzimzadənin öz əsərlərini olduqca aydın kompozisiyalar, insan həyəcanının daxili dinamikası, canlı xətt və ştrixlər vasitəsi ilə açdığını bildirirdi.

İncəsənət tədqiqatçısı və təbliğatçısı olan M.Nəcəfov, sənətşünaslıq elminin tənqid sahəsini də unutmur, təhlil etdiyi hər bir əsərə öz münasibətini bildirməyə çalışırdı. Çox zaman rəssamın bu və ya digər kompozisiyasına, tiplərinə, mənzərələrinə baxarkən, akademik peşəkarlığın tərəfdarları onlarda əsərin guya bədii-ideya dəyərini aşağı salan qüsurlar tapırlar. M.Nəcəfov Ə.Əzimzadənin yaradıcılığındakı mütərəqqi təmayüllərini şübhə altına salan bu kimi fikirləri qətiyyətlə rədd edirdi. Rəssamın novatorluğunu onun incəsənətindəki vətəndaş mövqeyində, təsvir formasının olduqca aydın və anlaşıqlı olmasında, milli bədii təmayüllərə mütərəqqi münasibətində görürdü.

I Fəslin *III yarımfəsli* **"Azərbaycan təsviri sənəti haqqında tədqiqatları"**nın şərhinə həsr olunub.

Mürsəl Nəcəfovun bir sənətşünas-alim kimi əsas metodlarından biri elmi nəticələrlə bədii keyfiyyətləri uzlaşdırmaqdır. Bu xüsusiyyət onun əksər əsərlərində özünü büruzə verir. Müasir Azərbaycan rəssamlarının yaradıcılığını şərh edərkən M.Nəcəfov, istər elmi, istərsə də bədii keyfiyyətləri ön plana çəkir, bədii təhlili onların üzərində qurmağa çalışırdı. Yarım əsrdən artıq bir dövr ərzində M.Nəcəfov onlarla maraqlı, aktual tədqiqatlar aparmış, müxtəlif mövzularda yüzlərlə məqalə, məktub, gündəlik, esse, oçerk yazmışdır. Alim biliyi

və yaradıcılıq təxəyyülü olmadan bu qədər işin öhdəsindən gəlmək olmazdı. Elə buna görə də M.Nəcəfov Azərbaycan sənətşünaslığının inkişafında müstəsna xidmətləri olmuş ən görkəmli alimlərimizdən biri sayılır.

M.Nəcəfov demək olar ki, müasir Azərbaycan rəssamlarının böyük əksəriyyətinin yaradıcılığını izləmiş, onların bədii irsini təhlil etmişdir. O, Əzim Əzimzadə, Səttar Bəhlulzadə, İzzət Seyidova, Mikayıl Abdullayev, Böyükağa Mirzəzadə, Tahir Salahov, Elmira Hüseynova, Asəf Cəfərov, Altay Hacıyev, Elbəy Rzaquliyev, Maral Rəhmanzadə, Oqtay Sadıqzadə və digər rəssamların xeyli qismi haqqında ayrıca kitabların, albomların müəllifidir. Fərəhli haldır ki, Mürsəl Nəcəfov 1950-1980-ci illərdə Moskva, Leninqrad və digər şəhərlərin müxtəlif nəşriyyatları ilə sıx bədii yaradıcılıq əlaqələri saxlamış, Azərbaycandan kənarda müxtəlif rəssamlarımızın fəaliyyətini işıqlandıran kitab-albomlar nəşr etdirmişdir. Bu hal rəssamlarımızın Azərbaycanın hüdudlarından kənarda tanınması baxımından olduqca böyük bir əhəmiyyət kəsb edir. M.Nəcəfovun yaradıcılığının bu cəhəti milli müstəqillik əldə etdiyimiz müasir dövrdə xüsusi önəm təşkil edir. Azərbaycanlı rəssamların yaradıcılığının bir çox xalqlara tanıdılması kimi şərəfli iş ona da müyəssər olmuşdur.

Onun B.Nəbiyevlə birgə hazırladığı "Ədəbiyyat və incəsənət 50 ildə" kitabını xüsusi olaraq qeyd etmək lazımdır. Monoqrafiyada M.Nəcəfov Azərbaycan incəsənətinin yarım əsrlik dövr ərzində keçdiyi inkişaf yolunu izləmiş, təsviri sənət, heykəltəraşlıq, musiqi mədəniyyəti, teatr, kino sənəti sahələrinə tarixi ekskurs etmiş, bədii təhlillər aparmışdır [1].

Azərbaycan təsviri sənətinin tədqiqatçısı və təbliğatçısı olan sənətşünaslıq doktoru, professor Mürsəl Nəcəfovun "Rəssam və zaman" kitabı görkəmli rəssam və heykəltəraşlarımızın bir növ yaradıcılıq portretlərindən ibarətdir. Burada müəllif, dəsti-xəttinə yaxşı bələd olduğu, inkişaf yollarını müntəzəm izlədiyi fırça və tişə ustalarının yaradıcılığını təhlil edib səciyyələndirmişdir. Kitabda toplanmış

---

[1] Nəbiyev B., Nəcəfov M. Ədəbiyyat və incəsənət 50 ildə – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1970, 104 s.

ayrı-ayrı sənətkarlara həsr olunmuş portret-oçerklər küll halında Azərbaycan rəssamlıq sənəti haqqında gözəl təsəvvür yarada bilir.

Professor M.Nəcəfovun ciddi tədqiqatçı olduğunu onun naməlum rəssamları aşkar edib, peşəkarcasına işlənmiş əsərlərini ictimaiyyətə, geniş tamaşaçı kütləsinə çatdırılması yolunda fəaliyyəti də təsdiqləyir. Bu baxımdan alimin “Rəssam və zaman” kitabında istedadlı rəssam Nəcəf Rasim haqqında verdiyi məlumat xüsusi maraq doğurur. Nəcəfovun təsadüf nəticəsində aşkar etdiyi Nəcəf Rasimin iki mənzərə janrında işlədiyi əsərlərin tədqiqi zamanı rəssamın həyat və yaradıcılığına aid maraqlı faktlar üzə çıxarmış, onun maraq dairəsini, üslub xüsusiyyətlərini, fərdi manerasını, dəst-xəttini müəyyən etməyə nail olmuşdur. Kitabda alim xalqa təmənnasız xidmət edən, ömrünü sənətə qovuşduran sənətkar Nəcəf Rasimi tanıyanlara, onun əsərlərinin özlərində saxlayan qohumlarına müraciət edərək məlumat vermələrini xahiş edir, rəssamın müasir incəsənət tariximizdə layiq olduğu mövqe tutması üçün əlindən gələni əsirgəməyəcəyini bildirirdi.

Azərbaycanın dövlət quruculuğunun o dövrdəki mərhələsində estetik tərbiyənin əhəmiyyətini nəzərə alan müəllif, “Gözəllik aləminə səyahət” kitabında (1973, 1985) oxuculara sənətkar və sənət inciləri haqqında yığcam məlumat verir.

Məlumdur ki, milli mədəniyyətimizin çoxəsrlik, zəngin tarixini öyrənmək, incəsənətimizin yüksəlişini öz gözü ilə görmək istəyən hər bir şəxs, əsrlərdən bəri günümüzədək kimi gəlib çıxmış mədəniyyət abidələrinə – qaya təsvirlərinə, binalara, daş oymalara yerində baxmaqla kifayətlənə bilməz. O, həm də muzeylərimizə bələd olmalıdır. Çünki, arxeoloji qazıntılar zamanı aşkara çıxarılan maddi-mədəniyyət nümunələri, nadir əlyazmaları və incəsənət əsərləri muzeylərdə qorunub saxlanır. Muzeylərimizdə Azərbaycan mədəniyyətinin bütün sahələrinə aid zəngin material toplanmışdır. Azərbaycanın paytaxtı Bakını muzeylər şəhəri adlandıran professor Nəcəfov həmçinin Bakıda cəmləşən bir sıra muzeylər arasında R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət muzeyinin yaranma tarixi, burada toplanan nadir sənət incilərindən söhbət açır (43). O, muzey zəhmətkeşlərin, xüsusilə gənc nəslin estetik tərbiyəsi sahəsində səmərəli tədbirlər

həyata keçirir və bu nəticəyə gəlir ki, incəsənət aləminə nüfuz etmək, Azərbaycan, rus, Qərbi Avropa, İran, Hindistan və sair ölkələrin incəsənətinə bələd olmaq istəyən hər bir bakılı, azərbaycanlı bizim İncəsənət muzeyinin kolleksiyalarını da görməli, Bakının meydanlarını və parklarını bəzəyən monumental abidələrə, gözəl memarlıq nümunələrinə tamaşa etməli, bu abidələrin, binaların yaradıcıları haqqında məlumatlı olmalıdırlar.

Dissertasiyanın **"Professor Mürsəl Nəcəfovun elmi yaradıcılığında dünya incəsənətinin tədqiqi və təbliği"** adlı **II fəslinin** *I yarımfəslində* alimin **"Dünya muzeylərinin tədqiqində və təbliğində rolu"** müəyyən olunur.

M.Nəcəfovun sənətşünaslıq fəaliyyətində xarici ölkələrin memarlıq və təsviri sənət abidələrinin bədii təhlili geniş yer tutur. Dünya şöhrəti qazanmış klassik və müasir fırça, tişə ustalarının yaradıcılıqları barədə də sanballı əsərlər yazan sənətşünasın "Fidiy" (29), "Rafael Santi" (30), "Rubens" (74) kimi kitabları Azərbaycan sənətsevərlərində böyük maraq doğurmuşdur.

M.Nəcəfov bilavasitə özünün gördüyü, müşahidə etdiyi əsərləri, abidələri tədqiq edir ki, bu hal 1960-1980-ci illərdə Azərbaycan sənətşünaslıq elminin inkişafı üçün olduqca vacib idi. Hər hansı bir kənar məlumatın sırf rus dilində tərcümə üslubunda qurulduğu bir dövrdə Mürsəl müəllimin xarici incəsənət haqqında orijinal, "Moskvadan gəlməyən" fikirləri Azərbaycan sənətşünaslığının fərdi, özünəməxsus deyim imkanlarına malik bir şəraitdə inkişaf etməsi təqdirəlayiqdir. Onun İtaliya, Fransa, Çexoslovakiya, Rumıniya, Yunanıstan, Misir, Suriya, Türkiyə incəsənəti və memarlığı haqqında birbaşa azərbaycanca qələmə aldığı elmi material hələ də öz aktuallığını qoruyub saxlayır. M.Nəcəfov Parisin, Romanın, Florensiyanın, Praqanın, Budapeştin, Sofiyanın, Afinanın, İstanbulun, İzmirin, Qahirənin, Dəməşqin, Hələbin muzeylərində olarkən elmi qeydlər, maraqlı araşdırmalar aparıb, xarici ölkələr incəsənəti üzrə ixtisaslaşıb. Yazıb yaratmağın yüksək qiymətləndirildiyi, çap işi ilə əlaqədar vəsait çətinliklərinin həqiqi alim-sənətkara yad olduğu bir dövrdə M.Nəcəfovun imkan tapıb nəşr etdirə bildiyi çoxsaylı kitab və albomlar bizim üçün indi, üstündən bir neçə onillik keçdikdən sonra daha qiymətli, daha əzizdir. Çağdaş qələm əhlinin

böyük əziyyət bahasına etdirdiyi 20-30 müxtəlif kitabın hamısının birlikdə tirajının Mürsəl Nəcəfovun bir kitabçasının tirajından xeyli az olduğu indiki dövrdə onun kitabları xüsusilə əvəzolunmazdır. Ona görə ki, kiril əlifbası ilə çap edilmiş bu qiymətli məxəzlərin nə zamansa latın əlifbası ilə təkrar nəşr ediləcəyinə ümid yoxdur. Onlardan istifadə edə bilənlərimizin sayı gündən-günə azalmaqdadır...

Sənətşünas-alimin "Gözəllik aləminə səyahət" adlı kitabında (1973) dünya mədəniyyəti xəzinəsinə daxil olmuş memarlıq və təsviri sənət nümunələrindən danışılır. Sənətşünaslıq doktoru Mürsəl Nəcəfov qədim şəhərləri şöhrətləndirən görkəmli abidələrdən və muzeylərdən bəhs edərkən, ilk növbədə, şəxsi müşahidələrinə əsaslanır, eyni zamanda, qədim dünya, Orta əsrlər və müasir dövrün incəsənətinə dair yazılı mənbələrə müraciət edir.

Xarici ölkələrdə saxlanılan bizim mədəniyyət abidələrimizə Mürsəl Nəcəfovun marağı onun Misirə səfəri zamanı baş verir. Məhz Tədqiqatçı-alimin axtarışları nəticəsində Qahirənin Qəsr əl-Nil muzeyində XVI əsr Təbriz məktəbinə mənsub olan miniatürləri aşkar edilmişdir. Vətənpərvər alim səfərləri zamanı xarici dövlət muzeylərində və şəxsi kolleksiyalarda Azərbaycanın qədimiliyini sübut edən əsərlərin çox vaxt adlarının dəyişdirilərək başqa millətə məxsusluğunu aşkarlamışdır. Bu da sirr deyil ki, Azərbaycan mədəniyyət abidələrinin əksəriyyəti xarici kolleksiyalarda düzgün adla müəyyən olunmamışlar, hətta milli mənsubiyyət kimi məlumat çox vaxt bilərəkdən təhrif olunur – onların coğrafiyasını dəyişdirilir (hər kəsə məlum olan tipik misal – "Şeyx Səfi" xalçanın birdən "fars" xalçası olması). Professor Azərbaycan mənşəli eksponatların təyinatlarının tez-tez bu tərzdə dəyişdirilməsinin şahidi olmuş, bəzən bir qrup artefaktın dəyişdirilməsinə təsadüf edirdi. Xüsusən – xalçaların. Tədqiqatçı-alim belə bir faktla Amsterdamın ən böyük incəsənət muzeyi – "Reyksmuzeum" adlanan dövlət muzeyində rastlaşıb. Dünyanın ən böyük və zəngin muzeylərindən olan "Reyksmuzeum"un ekspozisiyalarının eksponatları arasında Niderland məktəblərinə mənsub olan rəssamların, İtaliya, Fransa incəsənətinin görkəmli nümayəndələrinin əsərləri ilə yanaşı, Avropa və Şərq

ölkələrində istehsal olunan dekorativ-tətbiqi sənət nümunələri – çini qablar, qızıl və gümüş əşyalar, qobelen və xalçalar toplanmışdır. Azərbaycanlı alimin nəzər diqqətini cəlb edən XVII-XVIII əsrlərdə toxunmuş xalçaların etiketlərdəki yazılarda xalçaların İran, Türkiyə və Qafqaza aid olduğu bildirilirdi. Ornamental bəzəklərinə, habelə kompozisiya və toxunma prinsiplərinə görə Təbriz karxanasına aid olan xalçalar nədənsə "Nord-vest Persiya", yəni Şimali-Qərb İran xalçaları kimi qələmə verilirdi. Quba-Şirvan tipli xalçalara da rast gələn alim, "Qafqaz" xalçaları kimi təqdim olunduğunun şahidi olmuş və buradakı xalçaların hansı xalqa və ya hansı ölkəyə mənsub olduğuna varmayan, daha doğrusu "belə "incəliklərdən" xəbərsiz" [2] olan xarici mütəxəssisləri qınaq obyektinə çevirmişdi.

M.Nəcəfovun elmi fəaliyyətinin əsas sahələrindən birini qarşılıqlı bədii əlaqələr problemi təşkil edir. Bu baxımdan onun "Zaqafqaziya rəssamlarının yaradıcılıq əlaqələri" (1962) kitabçasını qeyd etmək yerinə düşər. Zaqafqaziya sənət ustalarının fəaliyyətindən söz açan tədqiqatçı-alim, bu xalqların arasında olan bədii əlaqələrini incəsənətimizin milli özünəməxsusluğunun və beynəlxalq vüsətinin parlaq şəkildə təzahür etməsinə imkan yaratdığını bildirir. Digər tərəfdən, təsviri sənətdə yeni forma axtarışlarına meyil göstərən rəssamlar bədii folklor, miniatür, xalça sənətinin motivlərinə müraciət edərək, rəmzə, yəni simvolikaya, stilizasiya və improvizasiyaya, assosiativ-şərti mübaliğəyə, deformasiyaya yol verdiyini qeyd edən tənqidçi, Zaqafqaziya xalqlarının rəngkarlığının gələcək çiçəklənmə prosesini fırça ustalarının müasir incəsənətin novator nailiyyətlərinə, dünyanın mütərəqqi sənət cərəyanlarının ənənələrinə əsl yaradıcı münasibətindən asılı olduğunu bildirir.

II Fəslin *II yarımfəsli* **"Mürsəl Nəcəfov Azərbaycan və dünya xalqları incəsənəti haqqında televiziya və radio verilişlərinin müəllifi kimi"** səciyyələndirir.

[2] Nəcəfov M. Gözəllik aləminə səyahət – Bakı: Gənclik, 1973, s. 101..

İncəsənətin yorulmaz təbliğatçısı olan M.Nəcəfov tədqiqat işlərinin, rəylərin, oçerklərin, xatirə, qeyd və təkliflərin, məqalələrin yazılışı ilə kifayətlənməmiş, radio və televiziya üçün ümumi həcmi 100 ç.v. olan 250 mətn hazırlamışdı.

İlk növbədə M.Nəcəfov əsrin ortalarında efirə çıxan Televiziya Mədəniyyət Universitetinin dinləyiciləri üçün silsilə verilişlərin hazırlanmasında fəal iştirak etmiş, əksər verilişlərin müəllifi olmuşdur.

Əksər verilişlərini təsviri sənətə, onun təşəkkülünə və inkişaf yollarına bağlayan M.Nəcəfov, bu sənət növünün insan şüurunun, insan zəhmətinin bəhrəsi kimi, gözəl və nəfis sənət olduğunu ardıcıl olaraq çatdırmağa çalışırdı. Təsviri sənətin başqa incəsənət növlərindən, məsələn musiqidən, poeziyadan fərqini vurğulayan verilişin müəllifi, təsviri incəsənət əsərlərini yalnız gözlə görülüb dərk olunmasını izah edirdi, onların icra üsullarından xəbər verirdi.

Təsviri sənətin əsas üç növünü – rəngkarlığı, qrafikanı və heykəltəraşlığı gündəmə gətirən M.Nəcəfov, bəzən memarlığın və dekorativ-tətbiqi sənətin də bu sənət sahəsinə daxil edildiyini bildirir, bunu memarlıq abidələrinin və tətbiqi incəsənət nümunələrinin şəkillər və heykəllər kimi gözlə göründüyünü sadə tərzdə anladırdı.

Sənətşünas-alimin qənaətinə görə, təsviri sənət növləri (rəssamlıq və heykəltəraşlıq) həyat hadisələrini müəyyən zaman daxilində cərəyan etdirməklə çətinlik çəkir, lakin bu o demək deyil ki, şəkildə və heykəldə ideya, məzmun, həyəcan ifadə etmələrini təsdiqləyirdi. Təsviri sənət növlərinin başqa sənətlərə nisbətən məkan və zaman cəhətindən məhdud olmasına baxmayaraq, bu sənətlər vasitəsilə varlığı, hadisələri inkişafda vermək ən mürəkkəb məzmunu, sujeti açıb göstərməyin mümkün olduğunu qeyd edən professor Nəcəfov, məhz buna görə təsviri incəsənəti cəmiyyətimizin inkişafı işində ən mühüm vasitələrdən biri hesab edirdi.

M.Nəcəfov Azərbaycan incəsənətinə həsr olunmuş verilişlərə xüsusi önəm verirdi. Çox qədim bir tarixə malik olan Azərbaycan xalqının incəsənəti haqda söhbət açan M.Nəcəfov, əsrlərdən bəri xalq içərisindən çıxmış qabil sənətkarlar, nəsilbənəsil gözəl sənət nümunələri yaratmış xalq ustaları və onların əlilə

hazırlanmış zərif xalçalar və xalça məmulatı, ipək və güləbətin tikmələr, ağac, metal və daş oymalar, mayolika və keramika məmulatından söhbət açır və bu sənət əsərlərinin təkcə Azərbaycanda deyil, dünyanın bir sıra başqa ölkələrində də şöhrət qazandığından xəbər verirdi.

Əsas diqqəti daima müasir təsviri incəsənətin təbliğinə yönəlmiş sənətşünas-alimin incəsənətimizin bu və ya digər qoluna, ayrı-ayrı rəssamların yaradıcılığına radio dalğalarından səsləndirdiyi hər bir məlumat zəngin bədii dillə, eyni zamanda sadə, anlaşılan, asanlıqla qavranılan tərzdə çatdırılırdı. B.Kəngərliyə, M.Abdullayeva, B.Mirzəzadəyə, S.Salamzadəyə, Ə.Məmmədova, N.Əbdürrəhmanova, T.Tağıyevə və onlarla başqa sənət ustalarına həsr edilmiş verilişlərdə M.Nəcəfov rəssamların fərdi manerası, dəst-xətti, üslub xüsusiyyətləri haqda məlumatla kifayətlənmir, onlarla bağlı maraqlı hadisələri, xatirələri dilə gətirərdi ki, bu da verilişi daha maraqlı, daha canlı edirdi. Maraqlıdır ki, sənətşünas-alim radio dinləyicilərinə mühazirələrdə adları çəkilən rəssamların yaradıcılıq irsi ilə yaxından tanış olmaq üçün kitabların siyahısını da təqdim edirdi.

Radio verilişlərində M.Nəcəfov tez-tez Azərbaycan rəssamlarının son sərgilərindən məlumatlar verir, sənətkarlarımızın həm ölkə daxilində, həm də respublikadan kənarda nümayiş etdirdikləri boyakarlıq, qrafika və heykəltəraşlıq əsərlərinin necə rəğbətlə qarşılandıqlarını bildirirdi.

Rus incəsənətinə dair silsilə verilişləri XIX əsrin misilsiz yüksəlişə qalxmış rus incəsənətinin realistik xüsusiyyətlərinə və görkəmli rus rəssamlarının yaradıcılığına həsr edən alim, göstərilən dövrdə rus mədəniyyətinin müxtəlif sahələrində mütərəddid təmayüllərin dərin kök salmasını, ədəbiyyatın və incəsənətinin inkişafına demokratik ideyaların böyük təsiri olduğunu göstərirdi. Sənətşünas, Kiprenskinin, Tropininin, Venetsianovun, Bryullovun, İvanovun və d. rəssamların yaradıcılığını təhlil edib, "Səyyar sərgilər" şirkətinə daxil olan rəssamlar haqda müxtəsər məlumat verib.

1970-ci ildən onun diqqəti, qayğısı, təşəbbüsü ilə ekrana çıxan "Palitra" verilişi dövrün ən baxımlı və yaddaqalan verilişlərdən biri olmuşdu. Televiziya

verilişləri üçün 80 ssenari yazmış professor Nəcəfovun ssenari mətnlərinin böyük əksəriyyəti tamaşaçının incəsənət sahəsi üzrə maariflәndirmə işinə yönəlmişdir. Azərbaycan və dünya incəsənəti tarixi və mədəni irsi, nadir sənət nümunələri, dahi sənətkarları haqda məlumat verən, yeni-yeni səhifələrin açılmasına kömək edən bu verilişlər, keçmişi təzə məlumatlarla zənginləşdirir, cəmiyyətin estetik tərbiyəsinin, intellektual səviyyəsinin, dünyagörüşünün yüksəlməsinə təkan verirdi.

Televiziya verilişinin özəlliyi ondan ibarət idi ki, burada müəllif tarixi məlumatları nəzəri izahatlarla zənginləşdirir, hər bir dövrə aid bilgilər təsviri materialın nümayişi ilə müşayiət edilirdi.

Keçən əsrin 60-cı illərində Mürsəl Nəcəfovun dünya incəsənətinə həsr etdiyi mühazirələri "Palitra" adlı televiziya verilişində davamlı olaraq nümayiş etdirilmiş, Orta əsrlər, İntibah dövrü və digər dövrlərin incəsənət tarixi haqqında ətraflı söhbətlər aparılmışdır.

Onu da qeyd etmək lazımdır ki, hər verilişin tamamında müəllif apardığı söhbətlə əlaqədar sualları Televiziya Mədəniyyət Universitetinin rektorluğuna göndərilməsini tövsiyə edirdi.

Bütövlükdə, professor M.Nəcəfovun incəsənətin təbliğinə yönəlmiş respublika radiosu və televiziyası üçün çoxsaylı ssenariləri, təşkil etdirdiyi verilişləri cəmiyyətin estetik zövqünü istiqamətləndirir, onun formalaşmasına təkan verirdi.

Dissertasiyanın **"Elmi yaradıcılığında bədii tənqidin yeri"** adlanan *III yarımfəsli* professor Mürsəl Nəcəfovun elmi yaradıcılığında bədii tənqidin yerini müəyyənləşdirir.

Zəmanəsinin tənqidçisi olan professor Nəcəfov, bir qayda olaraq, sosialist realizmi mövqeyindən – sosialist inqilabı dövründə bədii mədəniyyətin obyektiv inkişaf proseslərin inikası kimi XX əsrin əvvəllərində təşəkkül tapmış sosialist incəsənətinin yaradıcılıq metodu baxımından çıxış edirdi.

Professor Mürsəl Nəcəfov həmişə yenilik hissi ilə yaşayan alimlərdən olub. O, həmişə mütərəqqi dünya incəsənətini izləyir, onun ən yaxşı cəhətlərini

öyrənirdi. Eyni zamanda, yaşadığı dövrün ideoloji mühitində formalaşan alim-sənətşünas sosialist realizmi üslubuna üstünlük verir və dünya incəsənətində inkişafda olan müasir təmayülləri qəbul etmir, mücərrəd və modernist "burjua" sənət nümunələrini mətbuat səhifələrində tənqid atəşinə tutur, onları "insanın estetik zövqünün formalaşmasına mənfi təsir göstərdiyini" vurğulayırdı.

1970-ci illərin birinci yarısına yekun vuran sənətşünas-alim qazanılmış nailiyyətləri və yaradıcı kollektivin qarşısında duran problemləri araşdıraraq boyakarlıq sənətinin o dövr üçün xarakterik olan təmayülləri, həmçinin yaradıcılıq və təşkilat işlərindəki mövcud nöqsanları göstərərək, onların həlli yollarını da müəyyən etməyə çalışırdı.

Monumental boyakarlıq sahəsində əldə olunmuş nailiyyətləri sadalayan M.Nəcəfov, Bakı metrosunun Nizami stansiyasında M.Abdullayev tərəfindən, Kukla teatrının foyesində Toğrul Nərimanbəyov tərəfindən və nəhayət, məişət kondisionerləri zavodunun fasadında Oqtay Şixəliyev və Hacıbala Rəcəbov tərəfindən yaradılmış mozaikalardan maraqlı məlumatlar verirdi ki, bu məlumatlar müasir Azərbaycan incəsənəti tarixi ilə maraqlanan sənətsevərlər və tədqiqatçılar üçün mühüm mənbə kimi qiymətləndirilir.

M.Nəcəfov eyni zamanda həmişə yaradıcı gənclərə də xüsusi diqqət yetirir, onların sənət aləmindəki ilk müvəffəqiyyətli addımlarını izləməyə çalışır, onların nailiyyətlərini nümayiş etdirən sərgilərdə iştirak edir, qeydlər aparırdı. Bu tədbirlərdə sərgilənən əsərlərin təsviri sənətin bütün növ və janrların əhatə olunması sənətşünas-alimə incəsənətimiz parlaq gələcəyi olmasına inam yaradırdı. Bu inkişafın, bu tərəqqinin hasil olmasını M.Nəcəfov belə şərtləndirirdi: "sənətimizin bugünkü vəziyyəti və gələcəyi üçün məsul olan bütün təşkilatlar gənclərin inkişafını təmin edəcək tədbirləri həmişə diqqət mərkəzində saxlasınlar, yaradıcılıq həyatında ilk addımlarını atan gənc qüvvələrə əsl qayğıkeş münasibət bəsləsinlər" [3].

---

[3] Nəcəfov M. Fərəhli nəticələr, problemlər... // "Qobustan" incəsənət toplusu, № 2 (34), 1977, s. 2.

Yüksək peşəkarlıq xüsusiyyətlərinə malik olan Mürsəl Nəcəfov, müasir sənətşünaslığın tərkib hissələri olan incəsənətin tarixi, incəsənət nəzəriyyəsi və bədii tənqidin mahiyyətini gözəl bilir, onların sıx əlaqəsini və qarşılıqlı asılılığını anlayaraq incəsənət əsərlərinin tədqiqi və təhlili zamanı istifadə edirdi.

Əsərlərin təhlili zamanı alim sənətşünaslığın məlum formal-üslub metodun çatışmazlığını – incəsənət əsərinin ideya əhəmiyyətinə fikir verməmək, formanın əhəmiyyətini mütləqləşdirmək – bilərək, ondan qaçır, daha çox mədəni-tarixi üsuluna üstünlük verirdi. Bu da təsadüfi deyil, çünki mədəni-tarixi üsul bədii əsərin təhlilində və bədii prosesin dərk edilməsində mədəniyyəti açar kimi istifadə edir. Mədəni-tarixi yanaşma ədəbiyyatı və incəsənəti ümumi mənəvi mədəniyyətin bir hissəsi kimi qəbul edir, bədii təzahürlərin mədəniyyətin geniş sahəsi ilə, xüsusən də incəsənətin başqa növlərinin bədii əsərləri ilə qarşılıqlı əlaqəsinə söykənib.

Sənətşünaslığın üç əsas bölməsindən birini təşkil edən bədii tənqidin qarşısında duran vəzifələri anlayan sənətşünas, əslində incəsənət əsərinin birinci şərhçisidir. Əsəri şərh edərkən, tənqidçi onun cəmiyyətlə əlaqəsini yaradır, əsərə yeni həyat verir – əsası odur ki, əsərdə obyektiv əhəmiyyətə malik olanı nəzərdən qaçırmayasan. Bunun üçün tənqidçiyə erudisiya və müəyyən biliklərə malik olmaqdan başqa, intuisiya, öncə forma hissi, bədii dilə həssaslıq lazımdır.

Tənqidçinin ədəbi bacarığı da böyük əhəmiyyətə malikdir. Dilin ədəbi üslubunun rolu, ancaq o əsas götürülə bilər. Tənqidçinin vəzifəsi – plastik surəti ifadə edən söz surətini yaratmaqdır. Bu baxımdan tənqidçinin yaradıcılığı rəssamın yaradıcılığına uyğun olub bədii yaradıcılığın bir sahəsi kimi çıxış edir.

M.Nəcəfovun bir sənətşünas kimi əsas üstünlüklərindən biri də elmi-nəzəri və bədii-publisistik dünyagörüşünü vahid elm müstəvisində müvəffəqiyyətlə birləşdirə bilməsidir. Adətən incəsənət tarixini, hər hansı bir mövzunu araşdırarkən tədqiqatçılar əsasən elmi dəlilləri, ümumiləşdirmələri ön plana çəkirlər. Belə tədqiqatçıların qələmə aldığı yazılar çox zaman bədii-publisistik mahiyyətdən uzaq olur ki, bu da təbiidir. Bir alim kimi Mürsəl Nəcəfovun elmi görüşləri və bir axarlı qələm sahibi kimi duzlu yazmaq bacarığını müasir

sənətşünaslığının proporsional inkişafı üçün labüd olan müxtəlif metodlarla paralel surətdə inkişaf etdirməyə əlverişli zəmin yaratmışdır [4].

**Nəticədə** tədqiqatın əsas müddəaları ümumiləşdirilib, aparılmış araşdırmalara yekun vurulub, perspektivlər müəyyənləşdirilib.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı tezis və məqalələrində öz əksini tapmışdır:**

1. Mürsəl Nəcəfovun elmi irsi // İncəsənət və mədəniyyət problemləri. № 3(29), Bakı, 2009. s.167-172
2. Mürsəl Nəcəfovun qrafik irsi // İncəsənət və mədəniyyət problemləri №3(32) s. Bakı, 2010. S.187-191
3. Professor M.Nəcəfovun elmi yaradıcılığında bədii tənqidin yeri // Mədəniyyət dünyası jurnalı. Bakı, 2010. S.126-130
4. Professor Mürsəl Nəcəfovun elmi yaradıcılığında Ə.Əzimzadə irsinin tədqiqi // Mədəni maarif jurnalı №12. Bakı 2010.s. 14-17
5. Деятельность видного ученого искусствоведа Мурсала Наджафова в области изобразительного искусства // Национальные образы мира в художественной культуре. Нальчик 2010, с.385-389
6. Professor Mürsəl Nəcəfov Azərbaycan incəsənətinə dair radio verilişlərinin müəllifi kimi // Mədəni maarif jurnalı №1.Bakı 2011. S.10-12
7. Mürsəl Nəcəfovun Azərbaycan təsviri sənətilə bağlı tədqiqatları // Qobustan məcmuəsi №2.2011 s.90-92
8. Professor Mürsəl Nəcəfovun dünya incəsənəti haqqında televiziya ssenariləri // Memarlıq, şəhərsalma tarixi və bərpası. Toplu №1(2),2012. S.202-209
9. Mürsəl Nəcəfovun yaradıcı bioqrafiyası //Memarlıq, şəhərsalma tarixi və bərpası. Toplu №2(6) Bakı 2013. S.145-152
10. Azərbaycan sənətşünaslığının inkişafında Mürsəl Nəcəfovun rolu. // Bakı "Təknur"- 2014.(monoqrafiya)

[4] Zeynalov X. Mürsəl Nəcəfov // "Mədəniyyət və incəsənət" toplusu, may 2003, s.32.

11. Своеобразие стиля Мурсала Наджафова в изобразительном искусстве // Научные исследования в сфере гуманитарных наук: Открытия XXI века. Материалы II Международной научно-практической конференции. Пятигорск 2015. С.176-181
12. Sənətşünaslıqda M.Nəcəfov dəst-xətti // AMEA-nən 70 illiyinə həsr olunan gənc alim və mütəxəssislərin “Akademik elm həftəliyi – 2015” adlı beynəlxaq multidissiplinar forumun tezisləri. Bakı 2015. S.116-118
13. Летописец Азербайджанского искусствоведения //Вестник Тернопольский национальный педагогический университет имени Владимира Гнатюка 2015. С.290-296
14. Azərbaycan incəsənətində M.Nəcəfovun rolu // Türk mədəniyyəti, İncəsənəti və Mədəni İrsin Mühafizəsi IX Beynəlxalq Simpoziumun materialı.-İtaliya, 2015 (çapdadır)

**П.А.Алиева**

# Теоретические проблемы искусства в научном наследии Мурсала Наджафова

## Р Е З Ю М Е

Диссертация посвящена исследованию научного наследия видного деятеля науки, доктора искусствоведения, профессора Мурсала Наджафкули оглы Наджафова. Диссертация состоит из введения, двух глав, шести подглав, заключения и библиографии. Во введении обосновывается актуальность темы, определяется степень исследованности проблемы, цель и задачи, излагается научная новизна, характеризуются основные источники, хронологические рамки и практическая значимость работы.

**В I главе** "Исследование азербайджанского изобразительного искусства, лежащего в основе творческого наследия Мурсала Наджафова» прослеживается ранний период научного творчества ученого, анализируются научные изыскания искусствоведа, посвященные художественному наследию А.Азимзаде, изучаются научные работы ученого в области азербайджанского изобразительного искусства.

**Во II главе** «Исследование и пропаганда мирового искусства в научном творчестве профессора Мурсала Наджафова» определяется роль ученого в деле изучения и пропаганды музеев мира. В главе искусствовед рассматривается как автор радио и телепередач, посвященных искусству Азербайджана и народов мира.

В **Заключении** обобщаются основные выводы исследования.

**P.A. Aliyeva**

# Theoretical problems in the scientific creation of professor Mursal Najafov

## Summary

The thesis is dedicated to the study of the scientific heritage of the outstanding scientist, doctor of art, professor Mursal Najafgulu oglu Najafov. The thesis consists of an introduction, two chapters, six semichapters, conclusion and bibliography. In the introduction there is grounded the urgency of the theme, determined the degree of the investigation of the problem, the purpose and tasks, stated the scientific novelty, characterized main sources, chronological limits and practical significance of the work.

In the first chapter named "The investigation of Azerbaijan fine arts based on the creative heritage of professor Mursal Najafov" there is traced the early period of scientific creation of the scientist, analysed scientific researches of the art critic dedicated to artistic heritage of A. Azimzade, studied scientific works of the scientist in the sphere of Azerbaijan fine arts.

In the second chapter named "The investigation and propaganda of the world art in the scientific creation of professor Mursal Najafov" there is determined the role of the scientist in the study and propaganda of the world museums. The art critic is considered to be the author of broadcasts and TV shows dedicated to the art of Azerbaijan and the peoples of the world.

Main results of the research are summarized in the conclusion.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ КУЛЬТУРЫ И ИСКУССТВА**

*На правах рукописи*

**ПАРВАНА АЛИ кызы АЛИЕВА**

# ТЕОРЕТИЧЕСКИЕ ПРОБЛЕМЫ ИСКУССТВА В НАУЧНОМ НАСЛЕДИИ МУРСАЛА НАДЖАФОВА

*6203.01 – Теория, анализ и критика искусства*

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертация на соискание ученой степени доктора философии по искусствоведению**

**БАКУ – 2016**